# *Səfir:* "Oktyabrın 7-si Holokostdan sonra yəhudi tarixində ən qara gün kimi yadda qalacaq"

## Azərbaycandakı bacı və qardaşlarımızdan gələn dəstək mesajları bizi heyrətə gətirdi

İsrailin Azərbaycandakı səfiri Corc Dik son günlər bu ölkədə baş verən hadisələrlə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada oktyabrın 7-sinin Holokostdan sonra yəhudi tarixində ən qara gün kimi yadda qalacağı qeyd olunub. Vurğulanıb ki, HƏMAS terrorçuları İsrail vətəndaşlarını öldürmək, qaçırmaq üçün İsrailin cənubundakı şəhərlərə hücum edərək gözlənilməz müharibəyə başlayıb.

Səfir bildirib ki, baş verən hadisələr nəticəsində 700-dən çox israilli ölüb, 100-dən çox adam qaçırılıb və 2000-dən çox insan yaralanıb. Hücumun vaxtı sürpriz olsa da, qəddarlıq sürpriz deyildi.

"HƏMAS bir soyqırımı təşkilatıdır, onun liderləri açıq şəkildə bütün yəhudilərin öldürülməsindən danışır. Bu, onların nizamnaməsində yazılıb. Nifrət mədəniyyəti bu barbarlığın səbəbidir. Bu gün baş verənlər İsraildə görünməmiş bir hadisədir və biz bunun bir daha baş verməyəcəyinə əmin olacağıq.

İsrail ordusu HƏMAS-ın imkanlarını məhv etmək üçün dərhal bütün gücünü işə salacaq. Biz HƏMAS təhlükəsini aradan qaldıracağıq. Bu müharibədir. Təəssüf ki, bu, İsrail tarixində faciədən qalxmalı olduğumuz ilk müharibə olmayacaq.

Əvvəllər də hücuma məruz qalırdıq, sayca az idik, qəfil yaxalanırdıq. Biz Yom Kippur müharibəsinin 50 illiyini qeyd etdik, o müharibənin ki, ərəb dünyasının orduları İsraili işğal etmək istəyirdi. Sonda İsrail ordusu Qahirə və Dəməşqin qapılarında idi.

Bu dəfə də Yaxın Şərq reallığını dəyişəcəyik. Qan vermək üçün gözləyən yüzlərlə israilli var. Yüzlərlə israilli ehtiyac anlarında Cənubda yaşayan xalqına kömək etmək üçün könüllü olaraq çalışır. Orduya qoşulmaq və ədalət uğrunda döyüşmək üçün dünyanın hər yerindən geri uçan insanlar var. Biz öz ailəsini, torpağını qoruyacaq şir millətiyik. Biz qərarlıyıq, biz birik və biz qalib gələcəyik", - deyən C.Dik Azərbaycandakı bacı və qardaşlarından gələn dəstək mesajlarının onları heyrətə gətirdiyini vurğulayıb.

O, həmçinin diqqətə çatdırıb: "Cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlardan nə qədər mesaj, e-poçt, votsap və zəng aldığımızı saymağı dayandırdım. Səfirliyin darvazası önünə gül dəstələrinin düzülməsi isə, doğrudan da, ürəkaçandır.

İsrail xalqı adından Azərbaycan xalqına demək istəyirəm ki, siz bizim qəlbimizə toxundunuz, sağ olun!"

Diplomat eyni zamanda beynəlxalq ictimaiyyətə müraciət edib. Səfir deyib: "Bu, yaxşı ilə şərin, doğru ilə batilin savaşıdır.

Doğru tərəfdə olduğunuzdan əmin olun və İsrailin özünü müdafiə etmək hüququnu bütün lazımi vasitələrlə dəstəkləyin.

Bu müharibə uzun sürəcək, çətin olacaq, amma biz nə etməli olduğumuzu edəcəyik və sülhü geri qazanacağıq".

Azərbaycan. - 2023.- 10 oktyabr.- S.8.